**UOT 750**

**Vəfa Rüstəm qızı Yüzbaşıyeva**
**Odlar Yurdu Universiteti**
**baş müəllim**
**e-mail: kenanvefainci@mail.ru**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RƏNGKARLIĞI KONTEKSTİNDƏ AVANQARD ÜSLUBUN İNKİŞAFI

**Xülasə:** Bəşər yarandığı gündən indiyədək sonsuz müharibələr silsiləsi ətrafında bir çox məsələni – ictimai münasibətləri və insan şüurunu, elmi-texniki sivilizasiyanı, mədəniyyət və incəsənəti formalaşdırdı. Bütün bunlar, əlbəttə ki, mədəni proseslərdə, xüsusilə, ötən yüzilliyin incəsənətində öz əksini tapdı. Avropada yaradıcı və eyni zamanda, inteqrasion prosesləri stimullaşdıran nisbi sabitlik fonunda XX əsrin əvvəllərində Avropada incəsənətin bütün sahələrində – ədəbiyyatda, təsviri sənətdə çiçəklənmə baş verir, incəsənət istiqamətinə çevrilən avanqard üslub inkişaf edir.
**Açar sözlər:** avanqard, üslub, incəsənət, təsviri sənət, rəngkarlıq.

İncəsənətdə avanqard üslub klassik qanunları pozaraq ənənəvi sosial-mədəni dəyərlərə olan münasibəti dəyişmişdir. Belə ki, bu cərəyanın əsas ideyasını bir-birindən əsaslı surətdə fərqləndirən çox sayda müxtəlif məktəblər vardır. Təsviri sənətdə avanqard cərəyan modernizmlə birbaşa əlaqəlidir. Belə ki, onun intibahı XX əsrin əvvəllərinə təsadüf edir. Kubizm, ekspressionizm, konstruktivizm, primitivizm və bu kimi başqa cərəyanlar bura daxildir.

Avanqardizm Fransada yaranıb, sonralar Almaniya, İtaliya və digər ölkələrdə inkişaf etmişdir. Bu hərəkatın nümayəndələri qəbul edilmiş bütün qaydaları, normaları pozmağa çalışırdılar. Avropa mədəniyyəti heç vaxt bu qədər cərəyan, istiqamət, fərdi üslub rəngarəngliyi görməmişdi. Avanqardçılar incəsənəti ideyalarla zənginləşdirmişdilər. Bu cərəyan nümayəndələrinə P. Pikasso, A. Matiss, V. Kandinski, S. Dali və digər bu kimi böyük sənətkarlar daxildirlər. Bütün fərdi üslub müxtəlifliyinə baxmayaraq, həmin rəssamlar birgə səylə təbiəti təqlid etməyən, yaradıcı ideyalar əsasında yeni bədii sistemi araşdırırdılar. Avropada avanqard cərəyanın görkəmli nümayəndəsi olan Pol Kli abstrakt sənətin inkişafına böyük təsir göstərmişdir. Pol Klinin yaradıcılığının inkişafı modernizmin müxtəlif istiqamətlərinin yaranması və inkişafı dövrünə təsadüf edir.

Avanqardizm fransız sözü olub "irəli, mühafizə" mənasını ifadə edir, XIX-XX əsrlərdə Avropa incəsənətində yaranmış cərəyanların ümumiləşdirilmiş adıdır.

XX əsrdə incəsənət sahəsindəki mütəxəssislər yeni dünyaya uyğunlaşmaq, onu anlamaq, təmsil və ifadə etmək üçün innovativ yollar axtarmağa başladılar. Nəticədə müasir baxış tərzinə yiyələnmiş, keçmişdən qoparaq, yeni ifadə formasını öz yaradıcılıqlarında əks etdirməyə başlayan, incəsənət və estetikaya yönələn sənətkarlar bəzən ənənəvi mövzuları müasir nöqteyi-nəzərdən işləyir, bəzən isə tamamilə yeni mövzuları nümayiş etdirirdilər. Təsviri sənətdə müasirliyi təbliğ etmək istəyən rəssamlar təkcə mövzu baxımından deyil, texnika baxımından da tamamilə fərqlənir, akademik qaydaları rədd edirdilər.

XIX əsrdə incəsənət sahəsində "avanqard" termininin yaranmasına zəmin yaranmışdı. Fransızcadan "vanguard" ordunun əsas hissəsi mənasını verən bu söz 1880-ci illərdən etibarən incəsənətdə işlədilməyə başlamışdır. Avanqard rəssamlar öz sənət əsərlərini nümayiş etdirməyə can atırdılar və öz dövrünün qabaqcılı sayılan və formalaşmış incəsənət ənənələrinə meydan oxuyurdular. Belə məşhur rəssamlar arasında Vinsent Van Qoq, Pol Qoqen və Pol Sezan kimi böyük ustadlar xüsusi yer tuturdular. Bəzi rəssamlar avanqard üslubda siyasi və sosial ideologiyaları tənqid edirdilər [1].

Avanqard üslub Azərbaycan incəsənətinin ən parlaq nümayəndələrinin yaradıcılığını da əhatə edir. Cavad Mircavadov, Tofiq Cavadov, Rasim Babayev, Kamal Əhməd, Əşrəf Murad, Qorxmaz Əfəndiyevin parlaq, təkrarolunmaz yaradıcılığını siyasi və ideoloji senzura ictimai bədii həyatdan sıxışdırıb çıxarmış və bu cərəyanın inkişafına təkan vermişdir.

XX əsrin ikinci yarısında dünya incəsənətində inkişaf edən cərəyanlar Azərbaycan rəssamlarının yaradıcılığından da yan keçməmişdi. Artıq təsviri sənətdə fərdi üslub rəngarəngliyi xüsusi əhəmiyyət qazanmışdı. Azərbaycan təsviri sənətində öz üslubu, təsvir motivləri, tapdığı özünəməxsus formaları ilə bu gün də öz müasirlərini düşündürən rəssam Rasim Babayevin öz yaradıcılığında avanqard üsluba yanaşması bizə məlumdur. Rəssamın fəlsəfi və bədii düşüncə tərzi, rəng duyumu, həyata baxışı, obrazlar sistemi onun yaradıcılığını həmişə diqqət mərkəzində saxlamışdır. Onun yaradıcılığının əsasını "Xeyir və Şər"in bədii ifadəsi təşkil edir. Rasim Babayev müasir həyatda gördüklərinə fərqli və təzadlı məna-məzmun vermişdir. "Hərbi psixoz", "Təcavüz", "Ekstremistlər marşı", "Pablo Nerudanın xatirəsinə", "Müharibənin siması", "Diptix. Mənafeyim üçün yeyirəm, içirəm", "İmperializmin qanlı generalı Pinoçet" kimi əsərlərində rəssam ideoloji çərçivələrə sığmamış, dünyəvi problemlərə, bəşəriyyəti düşündürən mövzulara toxunmuş, tamaşaçıları bu istiqamətdə, bu problemlər ətrafında düşünməyə səsləmiş, dövrün ziddiyyətlərini əks etdirməyə çalışmışdır.

Cavad Mircavadov Azərbaycan rəngkarlığında avanqard baxışı, eksperimentləri və təsviri sənətdə novator çıxışları ilə məşhurdur. Rəssamın obraz və süjetləri, motiv və formaları izləyici təxəyyülünü düşünməyə sövq edir, onda

emosional hallar yaşadır. İnsan düşüncəsinin hüdudlarında qeyri-adi hissetmə və müşahidə qabiliyyəti ona yeni formalar axtarışı üçün təkan verirdi. Rəssamın yeni ifadə vasitələri yaradıcılığının sərhədlərini genişləndirirdi. Cavad Mircavadovun kompozisiyalarında gözəlliyin yaratdığı estetiklik rədd edilir, onların yerini kobud, cansıxıcı fiqurlar əvəz edir. Bu qorxulu, insanı vahiməyə boğan insanlar onun gördüyü, ifadə etmək istədiyi gerçəklikdə öz əksini tapmışdır [4]. Rəssamın "Qaçırılma", "Fayton", "Oğlaq", "Ümid işığı", "Od Tanrısı", "Meydan", "Qadın balqabaqla", "Nur saçan atlı", "Hərəkət" əsərlərində istifadə etdiyi rəng uyğunluğu Şərq xalqlarının miniatür sənətinə təsir etmişdir. Cavad Mircavadovun yaradıcılığında əsas yer tutan "Yüzilliklərin himni" silsiləsi, "Azərbaycan dramaturqu Hüseyn Cavidə həsr olunur", "Analıq", "Maninin gəmisi", "İpək Yolu" adlı əsərləri qeyri-adi rənglərlə təsvir edilmişdir [3]. Avanqard baxışlı Cavad Mircavadov maddi həyatdan imtina edib özünü yaradıcılığa həsr etmişdir. Bütün yaradıcılığı boyu mühüm əhəmiyyət verdiyi əsərlərində o, xətdən imtina etmiş, rənglərin tonallığını seçmişdir. Əsərlərində teksturanın sayəsində mənəviyyata, işığa çıxmağa cəhd edir.

Rəssam Əşrəf Muradoğlunun yaradıcılığındakı avanqard kompozisiya həlli bu gün də aktualdır. Kompozisiya seçimi, ekspressiv rənglər, obrazların emosionallığı rəssamın yaradıcılığının zəngin olduğunu göstərir. Rəssamın ən məşhur tablolarından olan 1973-cü ildə çəkdiyi "Ata və oğul" və "Lenin Smolnıda" kimi əsərləri obrazların özünəməxsusluğu ilə seçilir. Rəssam bir sıra əsərlərində ictimai-siyasi mövzulara müraciət etmişdir. "Ata və oğul" əsərində rəssam qatı qırmızı rəngi kompozisiyada elə təsvir etmişdir ki, sanki tablo insan kimi nəfəs alır. Ata və oğul arasında olan mənəvi tellər bir növ rənglərdə öz əksini tapır. XX əsrin 70-ci illərində kətana köçürdüyü "Qara eynəkli qız", "Çanta ilə qadın", "İdmançı", "Ağ geyimli qadınlar", "Tennisçi" kimi tablolarında ifadə etdiyi obrazların fiqurları donuq, proporsiyaları uzadılmış, siluetik xətlərin kontrastı, kəskin rənglərin əhatəsində daha canlı və ifadəli olması avanqard görüntü yaratmışdır.

Digər avanqard rəssamlardan biri olan Kamal Əhmədi xüsusilə vurğulamaq lazımdır. Onun əsərlərində simvolika çox olduğundan daxili hissiyyat sanki rəssamı müşayiət edir, yaradıcılığında əsas bələdçisinə çevrilir. Bu rəssam sosialist realizm ənənələrindən imtina etmiş, onun tablolarında qara və qırmızı rənglər çoxluq təşkil edir. Kamal Əhmədin rəsmlərində xeyr və şərin, zülmətlə aydınlığın, ölüm ilə yaşamın, sevgi ilə nifrətin mübarizəsi öz əksini tapır. Kompozisiyalarına qəsdən əlavə etdiyi molbert, lampa, ikigözlü it, at kəlləsi kimi simvolik təsvirlər ilə rəssam cəmiyyətdə baş verən bütün hərc-mərclik, ədalətsizlik, özbaşınalığı duyub, dərk etmişdir [2].

Beləliklə, avanqardın üslub kimi meydana gəlməsi ənənəvi estetik norma və prinsiplərin, bədii ifadənin forma və metodlarının əksi Avropadakı mövcud yeni reallığın təzahürü idi. Mədəni proseslərin yeni keyfiyyətə keçməsi üçün yol açan avanqard bədii dəyərlərin yaradıcılarını – sənətkarları, onların dünyanı dərkini də dəyişmişdi. Belə ki, avanqard sənətkar həm də mistik fiqurdur. Avanqardın "ikinci gəlişi"ndə "inqilabi diskursun", ümumiyyətlə, yoxa çıxması onun öz mövqelərini tamamilə itirməsinə səbəb olmuşdu. Siyasi-inqilabi görüşlərə və proseslərə mənəvi dəstək olmadan avanqard üçün "inqilaba aidlik" konsepsiyasını formalaşdırmaq mümkün olmazdı. Avanqard üçün dağıdıcı, aqressiv ritorika, özünütəsdiq, burjua cəmiyyətində hökm sürən normalara meydanoxuma kimi xüsusiyyətlər zəruri idi. Lakin avanqardçılar müharibədən sonrakı dövrdə də maraqlı əsərlər yaratmışlar.

**Ədəbiyyat siyahısı:**


1. Əfəndi, R. Azərbaycan incəsənəti. -Bakı: Şərq-Qərb, - 2007, - 160 s.
2. https://medeniyyet.az/page/news/21056/Resm-eseri-ancaq-cerciveye-aiddir. html?lang=az
3. https://azgallery. az/az/news/203
4. https://medeniyyet. az/page/news/42194/XX-esrin-novator-ruhlu-ressami. html



**Вафа Рустам кызы Юзбашова**


## РАЗВИТИЕ АВАНГАРДНОГО СТИЛЯ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКОЙ ЖИВОПИСИ ПЕРИОДА НЕЗАВИСИМОСТИ


**Резюме:** С момента возникновения человечества и до наших дней круговорот бесконечных войн сформировал многие вопросы – общественные отношения и сознание человека, научно-техническую цивилизацию, культуру и искусство. Все это, конечно, нашло отражение в культурных процессах, особенно в искусстве прошлого столетия. На фоне относительной стабильности в Европе, стимулирующей ее творческие и в то же время интеграционные процессы, в начале XX века в Европе происходит расцвет всех направлений искусства – литературы, изобразительного искусства, развивается авангардный стиль, который в последствии станет художественным направлением.



**Ключевые слова:** Авангард, стиль, искусство, изобразительное искусство, живопись.

**Vafa Rustam qizi Yuzbashiyeva**

**DEVELOPMENT OF AVANGUARD STYLE IN THE CONTEXT OF AZERBAIJANI PAINTING IN THE PERIOD OF INDEPENDENCE**

**Summary:** Since its inception, mankind has formed many issues around the endless series of wars – social relations and human consciousness, scientific and technical civilization, culture and art. All this, of course, was reflected in cultural processes, especially in the art of the past century. Against the background of relative stability in Europe, which stimulates creative and at the same time integration processes, at the beginning of the XX century in Europe there is a flourishing in all spheres of art – literature and fine art, and an avant-garde style is developing, which will become an art direction.

**Key words:** avant-garde, style, art, fine art, painting.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 31.03.2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**